# Olimpiya dünyası

www.olimpiyadunyası.com
www.olimpnews.az

*Azərbaycan Milli Olimpiya Komitəsinin qəzeti* | № 42 (1502), 28 dekabr 2021-ci il | *Qəzet 2001-ci ildən çıxır.*


## *Avropa Velosipedçilər Birliyinin prezidenti Enriko Della Kasadan*

Azərbaycan Respublikasının Prezidenti
Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident,

Avropa Velosipedçilər Birliyinin İdarə Heyəti adından Sizi 60 illik yubileyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

Bir neçə gün əvvəl Azərbaycanın idman ictimaiyyəti Sizi yekdilliklə Milli Olimpiya Komitəsinin prezidenti seçdi. Fürsətdən istifadə edərək bu əhəmiyyətli hadisə münasibətilə Sizi təbrik edirəm.

Ümid edirəm ki, Siz bundan sonra da Azərbaycanda velosiped idman növünün hərtərəfli inkişafına diqqət yetirəcək və dəstək verəcəksiniz.

Mən Azərbaycanda yenidən nüfuzlu velosiped yarışlarının keçirilməsini arzu edirəm.

Hörmətlə,

***Enriko Della Kasa***
***Avropa Velosipedçilər Birliyinin prezidenti***

## *Avropa Cüdo İttifaqının prezidenti Sergey Soloveyçikdən*

Azərbaycan Respublikasının Prezidenti
Zati-aliləri cənab İlham Əliyevə

Hörmətli İlham Heydər oğlu,

Avropa Cüdo İttifaqı adından Sizi yubileyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Biz Sizi Azərbaycanda, İslam dünyasında və bütövlükdə beynəlxalq cəmiyyətdə şəksiz nüfuz və sonsuz hörmət qazanmış görkəmli siyasətçi və dövlət xadimi kimi tanıyırıq. Siz bizim dünyamiqyaslı şəxsiyyət kimi xatırladığımız Heydər Əliyevin işinin ardıcıl və sədaqətli davamçısı, atanızın layiqli övladısınız.

Sizin diplomatik uğurlarınız böyük hörmətə layiqdir, Avropa Şurası Parlament Assambleyasında Sizin səmərəli fəaliyyətiniz həmkarlarınızın çoxunun yadındadır.

Siz Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsində də çox böyük hörmət və nüfuz qazanmısınız. Sizin şəxsi iştirakınız sayəsində ölkədə dünya səviyyəli ən iri turnirlər uğurla keçirilir.

Fürsətdən istifadə edib Sizi bu günlərdə yenidən Milli Olimpiya Komitəsinin rəhbəri vəzifəsinə seçilməyiniz münasibətilə ürəkdən təbrik etmək və bu yolda Sizə hər cür uğur diləmək istərdim.

Sizin nəcib idman ideallarına səmimi sədaqətinizi, bəşər sivilizasiyasının davamlı inkişafının ən mühüm tərkib hissəsi olan idmana münasibətinizi çox yüksək qiymətləndiririk.

Mən təkbətək döyüşlərin dünyada ən populyar növlərindən birinin təmsilçisi kimi Sizi - Dünya Taekvondo Federasiyasının 6-cı dan qara kəməri və sertifikatının sahibini alqışlayıram. Cüdoçular Sizinlə birlikdə mübarizə ruhu, idman zalının ab-havası, güləşçi xalçasının qanunları ilə yaxşı tanış olan insanlar pleyadasına mənsub olmağı özləri üçün şərəf hesab edirlər.

Sizə, gözəl ailənizin bütün üzvlərinə səmimi-qəlbdən möhkəm cansağlığı, firavanlıq, Azərbaycan xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar arzu edirəm.

Hörmətlə,

***Sergey Soloveyçik***
***Avropa Cüdo İttifaqının prezidenti***




## Milli Olimpiya Komitəsi Prezident İlham Əliyevin 60 illik yubileyi münasibətilə videoçarx hazırlayıb

Azərbaycan Milli Olimpiya Komitəsi (MOK) Azərbaycan Prezidenti İlham Əliyevi 60 illik yubileyi münasibətilə təbrik videoçarxı hazırlayıb.

Videoçarxda Olimpiya çempionları Nazim Hüseynov, Zemfira Meftaxetdinova, Namiq Abdullayev, Fərid Mansurov, Elnur Məmmədli və Toğrul Əsgərov ölkəmizdə Olimpiya Hərəkatının inkişafına göstərdiyi yüksək qayğıya, idmançıların sağlamlığının qələbədən daha vacib olduğunu hər zaman diqqət mərkəzində saxlamasına, mötəbər turnirlərdə Azərbaycan idmançılarının üzləşdiyi ədalətsizliyə qarşı barışmaz mövqe tutmasına, olimpiyaçıların karyeralarını davam etdirmələri istiqamətində atılan addımlara, hər an idmançıların yanında olduğuna, Azərbaycanın regionlarından istedadlı uşaqların idmana cəlb olunmasına görə MOK prezidentinə təşəkkür ediblər.

Olimpiya mükafatçıları Rəfael Ağayev və Hacı Əliyev isə fəaliyyəti ilə təkcə olimpiyaçıların deyil, bütövlükdə Azərbaycan idmançıların yanında olduğuna və atletlərimizin qələbə naminə göstərdikləri əzmkarlığı, gərgin zəhməti yüksək qiymətləndirdiyinə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildiriblər.

Paralimpiya çempionu İlham Zəkiyev isə Prezident İlham Əliyevə təbrikində "Sizin qazandığınız Qələbə bu günə kimi mövcud qələbələrin tacı oldu" fikrini xüsusi vurğulayaraq, tarixi Zəfərə görə Müzəffər Ali Baş Komandana təşəkkür edib.

MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə Azərbaycan Respublikasının Prezidenti, MOK-un prezidenti İlham Əliyevi ölkəmizin idman ictimaiyyəti, idmançıları və idmansevərləri adından təbrik edib.

## Azərbaycan və Slovakiya Mədəniyyət festivalı keçirilib

Y.Kovalyov adına 229 saylı məktəbdə "Olimpiya Mədəniyyəti və Təhsil Proqramı" (OCEP) çərçivəsində Azərbaycan və Slovakiya mədəniyyət festivalı keçirilib. Azərbaycan-Slovakiya mədəniyyət festivalının iştirakçıları - MOK-un vitse-prezidenti Çingiz Hüseynzadə və baş katib Azər Əliyev, həmçinin təhsil nazirinin müavini Firudin Qurbanov, MOK-un vitse-prezidenti Zemfira Meftaxetdinova, MOK İcraiyyə Komitəsinin üzvü, gənclər və idman nazirinin müavini Mariana Vasilyeva ilk növbədə Y.Kovalyov adına 229 saylı məktəbin şəhid məzunlarına həsr edilən xatirə lövhəsinin qarşısına gül dəstələri qoyublar. Şəhidlərin əziz xatirəsinin anılmasından sonra OCEP çərçivəsində reallaşdırılan festivala start verilib. MOK rəhbərliyinin hesabat-seçki Baş Məclisinin iclasından sonra qatıldığı ilk tədbirin qəhrəmanlarının uşaqlar olması təsadüfi deyil. Bu, MOK-un Olimpiya fəlsəfəsini uşaq və yeniyetmələr arasında təbliğinə əhəmiyyət verməsinin göstəricisidir.



Qonaqları Azərbaycan və slovak dillərində salamlayan şagirdlər təbrik sözlərindən sonra 31dekabr - Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunan festivalın bədii hissəsi başlayıb.

Məktəblilər hər iki xalqın mədəni irsini özündə ehtiva edən xüsusi kompozisiyalar nümayiş etdiriblər.

*(ardı 2-ci səhifədə)*

## *Azərbaycan III MDB Oyunlarına ev sahibliyi edəcək*

Azərbaycan 2025-ci ildə keçiriləcək III MDB Oyunlarına ev sahibliyi edəcək. Bu barədə qərar MDB-yə üzv ölkələrin bədən tərbiyəsi və idman sahəsində əməkdaşlıq haqqında Saziş iştirakçılarının Bədən Tərbiyəsi və İdman Şurasının onlayn formatda baş tutmuş növbədənkənar iclasında qəbul olunub.

II MDB Oyunları isə 2023-cü ildə Belarusun paytaxtı Minskdə təşkil olunacaq.

Toplantıda, həmçinin idman sahəsində əməkdaşlığın aktual məsələləri də müzakirə edilib. O cümlədən, ayrı-ayrı idman növləri üzrə MDB çempionatlarının və kuboklarının keçirilməsi məsələsinə baxılıb. İşçi Qrupuna 2022-ci il iyunun 1-dək MDB yarışları ilə bağlı əsasnamə layihəsinin hazırlanması tapşırılıb.

Qeyd edək ki, I MDB Oyunları bu il sentyabrın 4-11-də Rusiyanın Kazan şəhərində keçirilib.

## Gənclər və idman naziri bir sıra görüşlər keçirib

Səh. 2

## *A n o n s*

## *Karateçilərimiz 2021-ci ildə 319 medal qazanıblar*

Səh. 3

## Elşad Nərimanov: "İnsan hər bir sınaq qarşısında mətin və qürurlu olmalıdır"

Səh. 4

## *AZARKEŞİN QEYD DƏFTƏRİNDƏN...*

Səh. 6

## *Şahmat üzrə beynəlxalq dərəcəli hakim və peşəkar rəssam*

Səh. 7

## *Olimpizm*

### Tokio-2020-ə görə 1,6 milyard dollar qənaət edilib

Yaponiyanın paytaxtı Tokioda keçirilmiş Yay Olimpiya və Paralimpiya Oyunlarının təşkilatçıları yarışlara təxminən 191 milyard yuan (1,6 milyard ABŞ dolları) qənaət ediblər. Bu barədə Tokio-2020-nin Təşkilat Komitəsinin baş katibi Tosiro Muto açıqlamasında bildirib.

Onun sözlərinə görə, olimpiada və paralimpiadaya ev sahibliyi etmək üçün xərclər 1453 trilyon yuan (12,7 milyard ABŞ dolları) olub: "Bu isə 2020-ci ildə proqnozlaşdırılan xərclərdən 191 milyard yuan azdır".

Qeyd edək ki, yarışlarla bağlı yekun hesabatın 2022-ci ilin iyununda açıqlanması gözlənilir.

# Gənclər və idman naziri bir sıra görüşlər keçirib

Azərbaycan Respublikasının gənclər və idman naziri Fərid Qayıbov Kuba Respublikasının Bakıdakı səfiri Alfredo Nieves Portuondo ilə görüşüb. Görüşdə Fərid Qayıbov ölkəmizin idman potensialı və dövlət gənclər siyasəti ilə bağlı məlumat verib. Hər iki sahənin dövlətimizin xüsusi diqqəti ilə əhatə olunduğunu deyib.



Səfir Alfredo Nieves Portuondo iki ölkə arasında gənclər və idman sahələrində əməkdaşlıqdan məmnunluğunu bildirib. Diplomat bu əlaqələrin gələcəkdə daha da inkişaf etdirilməsinə dair arzusunu ifadə edib.

Görüşdə əməkdaşlıqla bağlı bir sıra məsələlər müzakirə edilib.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov ölkəmizə səfər edən Beynəlxalq Boks Assosiasiyasının (IBA) prezidenti Umar Kremlyov ilə görüşüb. Qurumun inzibati binasında keçirilən görüşdə Fərid Qayıbovu nazir vəzifəsinə təyin olunması münasibətilə təbrik edən qonaq ölkəmizə səfəri çərçivəsində keçirəcəyi görüşlər, iştirak edəcəyi tədbirlər barədə məlumat verib.

Umar Kremlyovun səfər proqramının Azərbaycan boksçularına faydalı olacağına əminliyini bildirən Fərid Qayıbov qeyd edib ki, ölkəmiz bütün beynəlxalq idman qurumları kimi, Beynəlxalq Boks Assosiasiyası ilə də qarşılıqlı əməkdaşlığa xüsusi önəm verir.

Azərbaycan boksunun hazırkı vəziyyəti, gələcəkdə reallaşdırılması nəzərdə tutulan birgə layihələr və digər məsələlərin müzakirə olunduğu görüşdə Azərbaycan Boks Federasiyasının vitse-prezidenti Süleyman Mikayılov və digər şəxslər iştirak ediblər.

* * *

Azərbaycanın gənclər və idman naziri Fərid Qayıbov Avropa Şahmat İttifaqının prezidenti Zurab Azmayparaşvili ilə görüşüb. Görüşdə Azərbaycan Şahmat Federasiyasının prezidenti Mahir Məmmədov və icraiyyə komitəsinin üzvü Sərxan Həşimov da iştirak ediblər.

Qonaqları salamlayan nazir şahmat üzrə Vüqar Həşimov memorialının uğurla keçirilməsi münasibətilə təşkilatçıları təbrik edib.

"Vüqar Həşimov memorialı-2021" turniri ilə əlaqədar ölkəmizdə səfərdə olan Avropa Şahmat İttifaqının prezidenti səmimi görüşə görə təşəkkürünü bildirib və Azərbaycanda şahmatın böyük ənənələri olduğunu qeyd edib.

* * *

Gənclər və idman naziri Fərid Qayıbov bu yaxınlarda Türkiyənin İstanbul şəhərində keçirilmiş MMA döyüşü üzrə Yusif Fight Championship turnirində uğurla çıxış etmiş Gözəl Zutova və məşqçisi Yusif Əliyevlə görüşüb.

İdmançını növbəti qələbəsi münasibətilə təbrik edən nazir ona qarşıdakı yarışlarda da uğurlar arzulayıb.

Qeyd edək ki, Yusif Fight Championship turnirində Gözəl Zutova Ermənistan təmsilçisi Nare Narqarosyanı 10 saniyəyə məğlub edib.





# Azərbaycan və Slovakiya Mədəniyyət festivalı keçirilib

*(əvvəli 1-ci səhifədə)*

Festivalda OCEP-in Beynəlxalq Olimpiya Komitəsinin və Avropa Olimpiya Komitələrinin dəstəyi ilə Bakı-2019 Avropa Gənclərinin Olimpiya Festivalı (EYOF) çərçivəsində həyata keçirilən ilk və unikal proqram olduğu bildirilib. Qeyd olunub ki, Avropa və Azərbaycan məktəbləri arasında qardaşlaşma və mədəniyyətlərarası mübadilə layihənin əsas komponentlərindən biridir. Mədəniyyət, idman və təhsil təşəbbüsləri vasitəsilə məktəblilər arasında Olimpiya hərəkatı və dəyərlərinin (Hörmət, dostluq və mükəmməllik), həmçinin BMT-nin "Dayanıqlı İnkişaf Məqsədləri"nin təbliğ və təşviq edildiyi OCEP-in birinci mövsümündə 100 mindən çox şagird, 6 mindən çox müəllim cəlb olunub.

Bakı-2019-dan bəhs edən videoçarxın nümayişindən sonra 2022-ci ildə Avropa Gənclərinin Olimpiya Festivalının Slovakiyanın Banska-Bistrika şəhərində keçiriləcəyi haqda məlumat verilib. Proqramın uğurunu nəzərə alaraq Slovakiya Olimpiya Komitəsinin də rəsmi olaraq OCEP-ə qoşulması onu "Banska-Bistrika 2022"nin irsinə çevirmək haqda qərarının əhəmiyyəti xüsusi vurğulanıb. Proqramın ilk mövsümünə olan maraq nəzərə alınaraq Milli Olimpiya Komitəsinin təşkilatçılığı, Təhsil Nazirliyinin və digər tərəfdaşların dəstəyi ilə layihənin bu dəfə Slovakiya ilə paralel şəkildə yenidən Azərbaycanda icra ediləcəyi də bildirilib. Xüsusi qeyd olunub ki, OCEP-in ilk mövsümündən fərqli olaraq, 2022-ci ildən icra ediləcək ikinci mövsümündə qardaşlaşmış məktəblər şəbəkəsinə təkcə Avropadan deyil, dünyanın müxtəlif ölkə və şəhərlərindən də məktəblər qoşula biləcək. Y.Kovalyov adına 229 saylı məktəb bu mötəbər tədbir çərçivəsində AGOF-un yeni ev sahibi Slovakiyanı təmsil edəcək.

Azərbaycan məktəbinin Slovakiyada əməkdaşlıq etdiyi təhsil ocağı isə öz növbəsində məktəblərin səmərəli işbirliyi sayəsində ölkəmizin milli mədəniyyətini təbliğ edəcək və festival çərçivəsində Azərbaycanı təmsil edəcək. Bu isə öz növbəsində mədəni əlaqələr, həmçinin məktəblilər arasında dostluq münasibətlərinin gücləndirilməsi ilə yanaşı, Olimpiya hərəkatının təbliğinin və təşviqinin daha yaradıcı formatda həyata keçirilməsinə mühüm töhfə verir.

Məktəbin uğurlu idmançı şagirdlərinin təqdimatı, Slovakiya mətbəxinin ləziz təamları ilə tanışlıq, "Xarı bülbül" barədə məlumat, "Yallı" rəqsi, eləcə də slovak rəqsləri, məktəblilərin ifasında səslənən mahnılar və Milad bayramına özəl səhnələşdirilmiş musiqili-bədii kompozisiya qonaqların böyük marağına səbəb olub.

Beləliklə, təkcə iştirakçılar arasında deyil, həm də BOK və AOK tərəfindən də böyük rəğbətlə qarşılanan OCEP yeni mərhələyə qədəm qoyur.

# *Triatlon Federasiyasında yeni prezident*



Gənclər və İdman Nazirliyinin inzibati binasında Azərbaycan Triatlon Federasiyasının ümumi yığıncağı keçirilib.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayan tədbirdə çıxış edən nazir Fərid Qayıbov yığıncaq iştirakçılarını salamlayaraq, tədbirin işinə uğurlar arzulayıb.

Sonra Azərbaycan Triatlon Federasiyasının prezidenti Azər Məhərrəmov federasiyanın son illərdəki fəaliyyəti barədə hesabat məruzəsi ilə çıxış edib.

Daha sonra federasiya rəhbərliyinə yeni seçkilər keçirilib. Elçin Əliyev Azərbaycan Triatlon Federasiyasının yeni prezidenti seçilib. Yığıncaqda, həmçinin Rüfət Həsənov və Azər Əliyev idarə heyəti sədrinin müavinləri, Əli Bünyadov və Sabirə Cahangirova isə idarə heyətinə üzv seçiliblər.

Federasiyanın yeni prezidenti Elçin Əliyev göstərilən etimada görə təşəkkürünü bildirib, ölkəmizdə idmanın bu növünün inkişafı üçün səylə çalışacaqlarını qeyd edib.

# Azərbaycan Milli Avarçəkmə Federasiyasına yeni prezident seçilib

Azərbaycan Avarçəkmə Federasiyasının ümumi yığıncağı keçirilib. Gənclər və İdman Nazirliyinin inzibati binasında keçirilən tədbirdə əvvəlcə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib. Tədbirdə çıxış edən gənclər və idman naziri Fərid Qayıbov konfrans iştirakçılarını salamlayaraq, yığıncağın işinə uğurlar arzulayıb.

Azərbaycan Milli Avarçəkmə Federasiyasının prezidenti Elçin Zeynalov hesabat məruzəsi ilə çıxış edərək son illərdəki fəaliyyət barədə məlumat verib.

Sonra federasiya rəhbərliyinə yeni seçkilər keçirilib. "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov səsvermə nəticəsində Azərbaycan Milli Avarçəkmə Federasiyasının yeni prezidenti seçilib.




Yığıncaqda, həmçinin Kamil Hüseynov və Fərid Əmirov vitse-prezident, Leyla Əliyeva və Rəhman Xanlarov isə idarə heyətinə üzv seçiliblər.

Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə çıxış edərək federasiyanın yeni rəhbərliyinə uğurlar arzulayıb.

Azərbaycan Milli Avarçəkmə Federasiyasının yeni prezidenti Vüqar Əhmədov çıxış edərək, göstərilən etimada görə təşəkkürünü bildirib. V.Əhmədov qeyd edib ki, idman həm ölkənin nüfuzunun yüksəldilməsində, həm də insanların sağlamlığının təmin olunmasında xüsusi rol oynayır. Federasiya prezidenti Azərbaycanda avarçəkmə idmanının inkişaf etdirilməsi üçün səylə çalışacaqlarını bildirib.

## Gimnastımız ilin idmançısı seçildi



Beynəlxalq İdman Mətbuatı Assosiasiyasının (AIPS) və İdman Mətbuatı üzrə Avropa İttifaqının (AIPS EUROPE-UEPS) üzvü və Azərbaycanda rəsmi təmsilçisi Azərbaycan İdman Jurnalistləri Assosiasiyası (AİJA) 25 yaşının tamam olduğu yubiley ilində müxtəlif nominasiyalar üzrə qaliblərin adlarını açıqlayıb.

Azərbaycan Gimnastika Federasiyasının təmsilçisi də fərqlənənlər sırasında yer alıb.

Yay Universiadasının ikiqat gümüş medalçısı, İslam Həmrəyliyi Oyunlarının mükafatçısı, Azərbaycanı gimnastika tarixində Tokio Olimpiya Oyunlarında təmsil etmiş ilk azərbaycanlı gimnast Zöhrə Ağamirova ilin idmançısı adına layiq görülüb.

## Güləş hakimlərinin kateqoriyaları yüksəldilib

Dünya Güləş Birliyi (UWW) beynəlxalq dərəcəli hakimlərin 2022-ci il üçün kateqoriyalarını açıqlayıb. Yerli referilərin bir neçəsinin kateqoriyası yüksəlib. Tural Əliyev I, Bəşir İsazadə və Həbib Nurulu II, Eldar Bayramov isə III dərəcəli beynəlxalq kateqoriya alıb.

Qeyd edək ki, UWW yanvarda güləş hakimliyində ən yüksək kateqoriya sayılan I-S (olimpiya) dərəcəsinə yüksələn ədalət təmsilçilərinin adlarını açıqlayacaq. Hazırda I dərəcədə olan Azərbaycanın 5 hakimi Olimpiya kateqoriyasına yüksəlməyə namizədlər sırasındadır.

## Seminar iştirakçılarına sertifikatlar təqdim olundu

Beynəlxalq Olimpiya Komitəsi və Dünya Atletikasının dəstəyi, Milli Olimpiya Komitəsi (MOK) və Azərbaycan Atletika Federasiyasının birgə təşəbbüsü ilə 2021-2022-ci illər üzrə məşqçilər üçün təşkil edilən beynəlxalq dərəcəli seminar başa çatıb.



Seminar iştirakçılarına sertifikatların təqdimetmə mərasimində çıxış edən MOK-un marketinq departamentinin rəhbəri Mehman Kərimov bildirib ki, Beynəlxalq Olimpiya Komitəsi, Dünya Atletika Təşkilatının təsdiq etdiyi Rusiya Federasiyasından olan beynəlxalq ekspert Oktay Mirzoev yerli məşqçilər üçün atletika üzrə seminar keçirib. MOK-un inzibati binasında təşkil olunan seminar Azərbaycanda atletika idman növünün inkişaf etdirilməsinə xidmət edir.

Dekabrın 26-dək Azərbaycanda səfərdə olan Oktay Mirzoev bölgələrə də səfər edərək, regionlarda atletikanın vəziyyəti, inkişaf dinamikası ilə tanış olub.

Qeyd edək ki, beynəlxalq ekspert Oktay Mirzoev gələcəkdə atletika üzrə strateji yol xəritəsi və inkişaf planı hazırlayacaq.

## Badminton Federasiyası 2021-ci ilə yekun vurdu



Azərbaycan Badminton Federasiyası (ABF) gələcək üçün hədəflərini müəyyənləşdirib. Federasiyanın mətbuat xidmətindən verilən məlumata görə, müvafiq qərar qurumun yeni prezidenti Taleh Ziyadovun sədrliyi ilə 2021-ci ilin yekun iclasında qəbul olunub.

İnteraktiv şəkildə keçirilən toplantıda federasiyanın rəsmi şəxsləri, məşqçi və idmançı heyəti iştirak edib. Onlar müxtəlif məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

T.Ziyadov regionlarda badmintonun inkişafının qarşıdakı illər ərzində prioritet məsələlərdən olduğunu bildirərək, qızların bu idman növünə cəlb olunmalarının vacibliyini vurğulayıb.

Federasiya prezidenti 2022-ci ildə müxtəlif istiqamətlər üzrə komitələrin fəaliyyətinin genişləndiriləcəyini və cari ildə ölkənin 5 regionunda həyata keçirilən “Shuttle Time” proqramının Naxçıvan da daxil olmaqla, digər bölgələrdə də təşkil olunacağını qeyd edib.

T.Ziyadov badmintonun inkişafında klubların sayının artırılmasının zəruriliyini bildirib.

O, məşqçi və badmintonçuların baza məlumatlarının və il ərzində fəaliyyətini izləmək üçün xüsusi onlayn tətbiqin yaradılması istiqamətində çalışacaqlarını söyləyib.

Məşqçilərin ustalıq səviyyələrinin yüksəldilməsi üçün qısa və uzun müddətə tanınmış badminton mütəxəssislərin ölkəyə gətirilməsi, həvəskarlar arasında qapalı və açıq havada badminton yarışlarının keçirilməsi də növbəti il üçün fəaliyyət proqramına daxildir.



## Federasiya prezidenti yığma komandaların üzvləri ilə görüşüb

Azərbaycan Velosiped İdmanı Federasiyasının prezidenti Mədət Quliyev Respublika Velotrekində müxtəlif yaş qrupları üzrə yığma komandaların üzvləri ilə görüşüb. İdmançıları qarşıdan gələn 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə təbrik edən M.Quliyev velosipedçilərin beynəlxalq yarışlarda uğur qazanmaları, ölkəmizi layiqincə təmsil etmələri üçün lazım olan bütün işlərin görüləcəyini, maddi-texniki təminatın daha da yaxşılaşdırılacağını deyib. Ölkəmizdə idmana göstərilən dövlət qayğısından danışan federasiya prezidenti qeyd edib ki, Azərbaycan Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev sağlam gəncliyin yetişməsi üçün hər zaman dəstək göstərir. Federasiya rəhbəri Beynəlxalq Velosipedçilər İttifaqının prezidenti David Lappartyen və Avropa Velosipedçilər Birliyinin prezidenti Enriko Della Kasanın Azərbaycan Prezidentinə məktub ünvanlayaraq onu 60 illik yubileyi və Milli Olimpiya Komitəsinin prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik etdiklərini vurğulayıb.

“Özünüzə inanın, vahid komanda olun. Sizi təkcə yaxşı velosipedçi yox, həm də Vətənimizin layiqli vətəndaşı kimi görmək istəyirik”, - deyən M.Quliyev bu cür görüşlərin tez-tez təşkil ediləcəyini bildirib.

Yığma komandanın baş məşqçisi Asif Həsənov və elit yığma komandamızın kapitanı Elçin Əsədov səmimi görüşə görə federasiya prezidentinə təşəkkür edərək, rəqabətə davamlı, güclü komanda formalaşdırılması üçün bütün qüvvələrin səfərbər olunacağını deyiblər.

## Karateçilərimiz 2021-ci ildə 319 medal qazanıblar

Başa çatmaqda olan 2021-ci ildə 14 rəsmi və bir sıra digər beynəlxalq yarışlarda iştirak edən Azərbaycan karateçiləri 319 medal qazanıblar.




Azərbaycan Milli Karate Federasiyasından (AMKF) “Olimpiya dünyası” qəzetinə verilən məlumata görə, medallardan 89-u qızıl, 118-i gümüş, 112-si bürünc mükafatdır.

Belə ki, karateçilərimiz yeniyetmə və gənclər arasında Avropa çempionatında 3 qızıl, 1 gümüş, 3 bürünc, gənclərin Premyer Liqa turnirlərində 7 qızıl, 5 gümüş, 3 bürünc, dünya kubokunda 1 qızıl, 3 gümüş, 2 bürünc, parakarate üzrə 1 qızıl, birinci MDB Oyunlarında 1 qızıl, 3 gümüş, 5 bürünc, Dünya Məktəblilərinin İdman Oyunlarında 1 qızıl, 3 gümüş, 3 bürünc medal qazanıblar.

XXXII Yay Olimpiya Oyunları karate komandamız üçün uğurlu olub. Belə ki, karateçilərimiz Tokio Olimpiadasını 2 gümüş medalla başa vurublar.

Karate komandamız Karate1 Premyer Liqa turnirlərində 2 gümüş, 7 bürünc, Avropa çempionatında 1 qızıl, 1 gümüş, 1 bürünc, parakarate üzrə isə 1 qızıl, 2 bürünc, dünya çempionatında 1 qızıl, 1 bürünc, parakarate üzrə 2 bürünc, WSF-nin 11-ci dünya şotokan çempionatında 15 qızıl, 9 gümüş, 12 bürünc və digər beynəlxalq yarışlarda 16 qızıl, 12 gümüş, 12 bürünc medal qazanıb.

Bu il federasiyanın uğurları sırasına Olimpiadanın karate yarışlarını idarə edən 15 hakim arasında Azərbaycan təmsilçisinin olmasını, rəsmi yarışlarda beynəlxalq hakimlərimizin sayının artmasını və böyüklər seçmə komandasının heyətinin gəncləşdirilməsini də əlavə etmək olar. Daha bir uğur isə AMKF-in prezidenti Yaşar Bəşirovun 80-dək ölkənin üzv olduğu WSF-yə prezident seçilməsi olub.

## Atletika üzrə turnir keçirilib

Dünya Azərbaycanlılarının Həmrəylik Gününə həsr olunmuş və Tofiq Karayevin mükafatı uğrunda “Dynamic new athletics” turniri keçirilib. 2008-2011-ci illər təvəllüdlü uşaqlar (U14) arasında keçirilən yarışda Bakı atletləri ilə yanaşı, 5 rayondan - Gəncə, Bərdə, İsmayıllı, Xızı, Astaradan da komandalar iştirak ediblər. Yekun nəticəyə görə, müxtəlif kateqoriyalar üzrə fərdi yarışlarda Kənan Bayramov, Dəmir Çobanzadə, Bahar Mustafayeva, Nihad Abbasov, Mehri Nadirova, Emilya İsgəndərova, estafet yarışlarında Oksana Cəlilova - Şahin Məmmədli, komanda yarışlarında Kənan Bayramov - Mehri Nadirova qalib adını qazanıblar.

Qalib və mükafatçılar medal, sertifikat və hədiyyə ilə təltif olunublar.



## Yeniyetmə qılıncoynadanlar Azərbaycan birinciliyində güclərini sınadılar

Azərbaycan Texniki Universitetinin İdman Sarayında 2005-2009-cu illər təvəllüdlü qılıncoynadanlar arasında Azərbaycan çempionatı keçirilib. Azərbaycan Qılıncoynatma Federasiyası və Bakı Şəhər Gənclər və İdman Baş İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən çempionatda idmançılar sablya, rapira və şpaqa növlərində güclərini sınayıblar. Oğlanların sablya yarışında Ayxan Xasıyev, qızların mübarizəsində isə Zərifə Hüseynova birinci yerə sahib çıxıb. Rapira yarışında Məhəmməd Nuriyev, Ameliya Məmmədova hamıdan güclü olub. Şpaqada isə Səid Əliyev və Alfiyə Abdinova fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Yubiley 80

# Elşad Nərimanov: “İnsan hər bir sınaq qarşısında mətin və qürurlu olmalıdır”

***Azərbaycan idmanının böyük və şanlı tarixi var. Bu tarixi yazanlar adlı-sanlı idmançılarımız və bu sahədə fəaliyyət göstərən mütəxəssislərimizdir. Məhz onların sayəsində Azərbaycan idmanı özünəməxsus ənənələrə malikdir. Dövlətimiz bu sahənin inkişafına böyük diqqət və qayğı göstərir. İdmanda özünəməxsus dəsti-xətti olan mütəxəssislərdən biri də bu il 80 illik yubileyi olan Elşad Nərimanovdur. Elşad müəllim səmimi insan, dərin intellekt sahibi olan pedaqoq, peşəkar idman mütəxəssisidir.***



80 yaşlı idman mütəxəssisi ilə müsahibə zamanı bu illər ərzində onun həyat yolunda baş verən ən maraqlı hadisələrə nəzər saldıq. O, danışdıqca gözümüzün önündə mənalı bir həyat səhifəsi açıldı. Müsahibimiz həmin anları xatırladıqca həm kövrəldi, həm də qürur və mübarizlik nümayiş etdirdi.

Elşad Əhməd oğlu Nərimanov 1941-ci il dekabrın 29-da Bakıda anadan olub. 1959-cu ildə 63 saylı orta məktəbi, 1963-cü ildə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi İnstitutunu bitirib. 1963-1965-ci illərdə ordu sıralarında xidmət edib. Onun idman və elm sahəsində kifayət qədər uğurları var.

Elşad Nərimanov Azərbaycan Respublikasının Bədən Tərbiyəsi və idman əlaçısı, Əməkdar məşqçi, dosent, əmək veteranı, Fəxri Bədən Tərbiyəsi və İdman işçisi, Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi, professor, Prezident təqaüdçüsü fəxri adlarına layiq görülüb. Beynəlxalq İdman Akrobatika Federasiyasının qızıl medalı və “Tərəqqi” medalı ilə təltif olunub. “Olimpiya dünyası” qəzeti Elşad müəllimlə müsahibəni çoxsaylı oxucularımıza təqdim edir.

***- Elşad müəllim, qəzetimiz və oxucularımız adından Sizi 80 illik yubileyiniz münasibətilə təbrik edirik. Bu illər ərzində idmanda böyük nailiyyətləriniz olub. Şübhəsiz ki, bütün bunlara bir göz qırpımında, asan nail olmamısınız.***

- Təşəkkür edirəm. Çox sağ olun ki, biz idman veteranlarını daim diqqətdə saxlayırsınız. “Olimpiya dünyası”nın çoxsaylı və daimi oxucularından biriyəm. Dəfələrlə redaksiyanızın qonağı olmuşam. Hər gəlişimdə redaksiya kollektivindən özümə qarşı isti və səmimi münasibət hiss etmişəm. Hiss olunur ki, burada peşəkar yaradıcı heyət və idmanın təbliği sahəsində böyük təcrübəyə malik olan insanlar işləyir. Yeri gəlmişkən, “Olimpiya dünyası” qəzetinin ötən ay 20 yaşı tamam oldu. Mən də yaradıcı kollektivinizi bu münasibətlə təbrik edirəm.

Qeyd etdiyiniz kimi, idman sahəsində böyük və çətin bir mərhələdən keçmişəm. Bu mərhələlər heç də asan başa gəlməyib. Həyatın hər bir məqamında çalışmışam ki, gördüyüm işdə məsuliyyətli olum. İstək və arzularımın həyata keçməsində qətiyyət nümayiş etdirmişəm. Uğursuzluq məni heç vaxt ruhdan salmayıb. Hər bir işin öhdəsindən gəlmək üçün səbr etmişəm. Səbr uğura gedən yolda əsas amillərdən biridir. İnsan hər bir sınaq qarşısında mətin və qürurlu olmalıdır. Belə olduğu təqdirdə uğur insanı daim izləyəcək.

***- İdmandakı ilk addımınız suyatullanmadan başlayıb, akrobatika ilə davam edib.***

- İdmana ilk gəlişim 1951-ci ilə təsadüf edir. 1956-cı ildə Minsk də keçirilən suyatullanma üzrə şəhərlərarası turnirdə çıxış etmişəm. Eyni vaxtda həm də akrobatika ilə məşğul olurdum. Bu idman növündə respublika yığma komandasının üzvü kimi SSRİ birincilik və çempionatlarında uğurla çıxış etmişəm. Qardaşım Bəhramla birlikdə 1958-ci ildə Azərbaycanda akrobatika idmanı üzrə ilk dəfə SSRİnin idman ustası adına layiq görüldüm. Bizi “Nərimanov qardaşları” kimi tanıyırdılar. Azərbaycanın akrobatika tarixində ilk dəfə Ümumittifaq Həmkarlar İttifaqının IV Yay Spartakiadasında və keçmiş SSRİ çempionatında kişilərin qoşa hərəkətində bürünc medala layiq görüldük. Eyni zamanda “Komsomolskaya pravda” qəzetinin mükafatı uğrunda suyatullanma üzrə ümumittifaq yarışında, SSRİ Silahlı Qüvvələrinin XII Yay Spartakiadasında və SSRİ birinciliyində öz bacarağımı nümayiş etdirirdim. 1961-ci ildə akrobatika üzrə Ümumittifaq Həmkarlar İttifaqının birinciliyində, 1962-ci və 1963-cü illərdə keçmiş SSRİ birinciliyində fəxri kürsünün ən yüksək pilləsində yer almışam. 1964-cü ildə akrobatika üzrə keçmiş SSRİ birinciliyində bürünc və Ümumittifaq Həmkarlar İttifaqının birinciliyində qızıl medala layiq görüldüm. Ümumilikdə 1957-1968-ci illər ərzində 10 dəfə respublika çempionu olmuşam.



***- Ömür yolunuza nəzər salarkən, əmək fəaliyyətinizin də məhsuldar olduğunu görürük.***

- Ömrümün 62 ilini əmək fəaliyyətinə sərf etmişəm. Bu müddət ərzində 36 il rəhbər vəzifələrdə çalışmışam. 1958-ci ildə atam ağır xəstəlik səbəbindən dünyasını dəyişdi. Ailə qayğılarını qarşılamaq üçün mən də işləmək qərarını verdim. Əvvəlcə “Neftçi”nin rayon Şurasında məşqçi, sonra isə 1959-1962-ci illərdə Azərbaycan Dövlət Estradasında artist-akrobat vəzifəsində saat hesabı çalışırdım. Bu illər ərzində həm də bütün dövlət konsertlərində qardaşım Bəhramla birlikdə çıxış edirdik. 1962-1963-cü illərdə 26 saylı şəhər peşə-texniki məktəbində bədən tərbiyə təlimatçısı kimi işə başladım.

1965-1967-ci illərdə Azərbaycan Politexnik İnstitutunun bədən tərbiyəsi və idman kafedrasında müəllim vəzifəsi mənə həvalə olundu. 1967-1970-ci illərdə Bakı şəhəri 221 saylı orta məktəbinə bədən tərbiyəsi müəllimi təyin olundum. Məktəbin komandası həmin vaxt rayon spartakiadasında 28-ci yeri tutmuşdu. Sonradan 3 il ərzində məktəb rayon spartakiadasında 4-cü yerə qədər yüksəldi. Bundan əlavə və məktəblər arasında rayonda keçirilən kütləvi-sağlamlıq və idman sahəsində sosialist yarışlarının qırmızı bayrağı bizim məktəbə təqdim olunmuşdu. Bu nailiyyətlərdən sonra Nizami rayonu Uşaq- Gənclər İdman Məktəbinə direktor vəzifəsinə təyin olundum.1970-1972-ci illərdə bu vəzifədə çalışdım. UGİM-də işlədiyim dövrdə məktəbin idmançıları və komandaları dəfələrlə Azərbaycan Respublikasının çempionları olmuş və mükafatalayiq yerlər tutmuşdular. Məktəbimizin qızlardan ibarət həndbol komandası SSRİ birinciliyinin qalibi adını qazanmışdı.

***- Rəhbər vəzifələrin məsuliyyəti daha çox olur. Bu barədə sizin fikirlərinizi bilmək istərdik.***

- Bəli. Qeyd edim ki, 1972-ci ildən 1977-ci ilədək Bakı Bədən Tərbiyəsi və İdman Komitəsində sədr müavini işləmişəm. 1975-1976-cı illərdə sədr əvəzi oldum. Bakı şəhəri idmançılarının ən yüksək nailiyyəti 1976-cı ildə SSRİ Xalqlarının VI Spartakiadasında oldu - VI yer. Bu nəticəyə görə SSRİ İdman Komitəsinin fəxri fərmanı ilə təltif olundum.

1977-1981, 1987-1990-cı illərdə “Ehtiyat Əmək Qüvvələri” Ümumittifaq KİC Bakı şəhər şurasının sədri, 1981-1987-ci illərdə Azərbaycan Dəmir Yolu “Lokomotiv” KİC-nin sədr müavini işlədim.

1990-1994-cü ildə Nərimanov rayon İcra Hakimiyyətində Bədən Tərbiyəsi və İdman Komitəsinin sədri olduğum dövrdə rayonun komandası şəhər spartakiadasında ümumi komanda birinciliyində və qadınlar arasında çempion adına layiq görülüblər.

1996-cı ildən Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasında “Gimnastika və onun metodikası” kafedrasında baş müəllim, 2005-ci ildən isə dosent vəzifəsində çalışmışam.

2010-cu ildən 2016-cı ilə qədər “Gimnastikanın nəzəriyyəsi və metodikası” kafedrasının, 2016-2018-ci illərdə “Kütləvi-sağlamlıq idman növləri” kafedrasının müdiri olmuşam. Hazırda həmin kafedrada professor kimi fəaliyyətimi davam etdirirəm.

Azərbaycan Gimnastika Federasiyasının akrobatika gimnastikası üzrə Texniki Komitəsinin prezidentiyəm. Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının Olimpiya Akademiyasının üzvüyəm. Azərbaycan İdman Veteranlar İttifaqı İdarə Heyətinin üzvü, Azərbaycan Gimnastika Federasiyası Veteranlar Şurasının sədriyəm.

***- İdman ictimaiyyəti Elşad müəllimi bir sıra kitabların müəllifi, mühüm tədbirlərin ssenaristi, quruluşçu rejissoru kimi tanıyır. Bildiyimizə görə həmin işlərin öhdəsindən layiqincə gəlmisiniz.***

- Verdiyiniz bu sualdan sonra xatirələr məni 1960-ci ilə apardı. Həmin vaxt Azərbaycan Dövlət televiziyasında səhər gimnastikasını biz nümayiş etdirirdik. Gözəl təəssüratlar idi. Eyni zamanda dövrü mətbuatda öz qələmimi sınayırdım. Belə ki, 1960-1990-cı illərdə respublikada çap olunan ayrı-ayrı qəzetlərdə 100-ə yaxın məqalələrim dərc edilmişdi.

1972-1994-cü illərdə Azərbaycan İdman Akrobatika Federasiyasının sədri vəzifəsində fəaliyyət göstərmişəm. 1972-1977-ci illərdə “Vətən” kinoteatrının nəzdində “İdman-İdman-İdman” kino-klubunun sədri olmuşam. Bu dövr ərzində məktəblilərin respublikanın görkəmli idmançıları ilə görüşlərini keçirirdik. Qeyd edim ki, gənclərin idmana cəlb olunmasında bu klubun böyük əhəmiyyəti olub.

Elmi-pedaqoji fəaliyyətimi bu günə kimi davam etdirirəm. Ümumittifaq və respublika miqyasında keçirilən elmi-praktiki konfranslarda çıxışlarım olub. Bu vaxta qədər 118 dərslik, dərs vəsaiti, metodiki vəsait, müxtəlif tədris proqramları, mühazirələr və elmi məqalələrin müəllifi olmuşam. 1972-ci ildən respublikada keçirilən kütləvi-gimnastika çıxışlarının və bədii-idman bayramlarının ssenari müəllifi və baş quruluşçu-rejissoru kimi fəaliyyət göstərmişəm. Azərbaycanda keçirilən 55-dən artıq yarış və turnirlərin, bədii-idman bayramlarının, açılış mərasimlərinin ssenari müəllifi və baş quruluşçusu olmuşam. Bu tədbirlərin keçirilməsi rəhbərlik tərəfindən yüksək qiymətləndirilib.

***- Uzun illər əldə etdiyiniz təcrübəyə əsasən bir sıra yarışlarda hakimlik etmisiniz. Ədalət təmsilçisi olmaq yəqin ki, böyük məsuliyyət tələb edir.***

- Ədalət təmsilçisi olmaq doğrudan da böyük məsuliyyət tələb edir. İstənilən idman növündə hakim qərəzsiz olmalıdır. Ani bir diqqəsizlik bir idmançının illərdən bəri çəkdiyi zəhmətini puç edə bilər. 1964-cü ildən idman hakimi kimi fəaliyyət göstərirəm. Azərbaycanın idman tarixində ilk dəfə 1969-cu ildə idman akrobatikası üzrə Ümumittifaq və 1977-ci ildə beynəlxalq dərəcəli hakim adına layiq görülmüşəm. Həmin dövrlərdə keçmiş SSRİ çempionatları, kuboku və keçmiş SSRİ məktəblərinin Spartakiadasında baş hakim, baş hakimin müavini olmuşam. Ölkə hüdudlarından kənarda da mənə göstərilən etimadı doğrultmuşam. Belə ki, Bolqarıstan, Polşa, Çin, Yunanıstan, Rusiya və digər ölkələrdə keçirilən Avropa və dünya çempionatlarında, beynəlxalq yarışlarda hakimlik edərək, həmişə əla qiymət almışam.



1998-ci ildə Beynəlxalq İdman Akrobatikası hərəkatında fəal iştirakına görə, Beynəlxalq İdman Akrobatika Federasiyası tərəfindən qızıl medal və diploma təltif olunmuşam.

***- Bütün bu işlərin müqabilində ailəyə necə vaxt ayıra bilmisiniz?***

- İnsanı həyata bağlayan ən əsas məqamlardan biri də gözəl ailədir. Əgər ailədə xoşbəxtlik və qarşılıqlı anlaşma hökm sürürsə, bu “kiçik ittifaqın” ömrü əbədi olacaq. Mən 54 ildir ki, Dilşad xanımla ömür-gün yoldaşıyam. Bu müddət ərzində bir-birimizi yaxşı başa düşmüşük. İşimlə bağlı evdə az olsam da, o bunu anlayışla qarşılayıb. Hər bir çətinlikdən birlikdə çıxmışıq. Gözəl, tərbiyəli və savadlı övladlar böyütmüşük. Buna görə özümü çox xoşbəxt hesab edirəm. Görünür, gözəl ailəmin olması mənim bu yaşa qədər bu cür gümrah olmağımın əsas səbəblərindən biridir. Gənc ailə quran cütlüklərə məsləhətim odur ki, hər bir məqamda güzəştə getməyi bacarsınlar. Möhkəm təməl üzərində qurulan ailə uzunömürlü olur.

***- Sizi bir daha təbrik edir, can sağlığı və uzun ömür arzulayırıq.***

- Çox sağ olun.

***Anar Əhmədov***

— Şahmat —

# Memorialın qalibi müəyyənləşdi

Bakıda beynəlxalq qrossmeyster, Azərbaycanın tanınmış şahmatçısı Vüqar Həşimovun xatirəsinə həsr olunan yeddinci super turnirinin təntənəli bağlanış mərasimi keçirilib. Tədbirdə çıxış edən Avropa Şahmat İttifaqının prezidenti Zurab Azmayparaşvili turnirin əhəmiyyətini yüksək qiymətləndirib. "Turnirdən çox zövq aldım. Ölkə mediasının da yarışa marağı böyük idi. Azərbaycan hökumətinə və təşkilatçılara turnirin keçirilməsində göstərdikləri dəstəyə görə təşəkkür edirəm. Qalibin armageddonda müəyyənləşməsi turnirin həyəcanını daha da artırdı. Hər kəs qalib olmur. Bu turnirdə mənim dostum sabiq dünya çempionu hindistanlı Vişvanatan Anand da iştirak etdi. Memorialda mükafatçılar sırasında yer almasa da, növbəti yarışlarda ona uğurlar arzu edirəm", - deyə Z.Azmayparaşvili qeyd edib.

Hamını şahmat oynamağa dəvət edən Z.Azmayparaşvili iştirakçılara uğurlar arzulayıb. Turnirin direktoru, Əməkdar məşqçi Anar Allahverdiyev altı gün ərzində təşkil olunan turnirin gərgin idman mübarizəsi və maraqlı partiyalarla yadda qaldığını deyib. Bildirib ki, "Vüqar Həşimov Memorialı-2021" ölkəmizdə ilin sonuncu irimiqyaslı idman yarışı kimi yaddaşlarda qalacaq. Turnir səmimi və mehriban şəraitdə keçdi. Buna görə iştirakçılara və hakimlərə təşəkkürümü bildirirəm.

Daha sonra turnirin baş hakimi Faiq Həsənov yarışın nəticələrini açıqlayıb.

Sonda Vüqar Həşimovun atası, turnirin Təşkilat Komitəsinin sədri Qasım Həşimov turnirin kubokunu ABŞ şahmatçısı Fabiano Karuanaya təqdim edib. Turnirin iştirakçılarına xatirə hədiyyələri təqdim olunub.




Yarışın yüksək səviyyədə təşkilinə görə təşəkkürünü bildirən Qasım Həşimov hamını qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edib, iştirakçılara uğurlar arzulayıb, turniri bağlı elan edib.

Qeyd edək ki, turnirin qalibi ABŞ təmsilçisi Fabiano Karuana olub. Macarıstanlı Riçard Rapport ikinci yeri tutub. Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov isə yarışı üçüncü pillədə başa vurub.

Sayca yeddinci dəfə təşkil olunan memorial Vüqar Həşimov Şahmat Fondunun təşkilatçılığı, Gənclər və İdman Nazirliyinin, Azərbaycan Şahmat Federasiyasının dəstəyi, SOCAR-ın sponsorluğu ilə keçirilib. Vüqar Həşimov memorialı ilk dəfə 2014-cü ildə Şəmkirdə keçirilib. Hazırkı dünya çempionu Maqnus Karlsen dörd (2014, 2015, 2018, 2019), Azərbaycan şahmatçısı Şəhriyar Məmmədyarov isə iki (2016, 2017) dəfə turnirin qalibi olub.

# Federasiya nümayəndələri uşaq sığınacağında olublar



Azərbaycan Gimnastika Federasiyasının (AGF) nümayəndələri Bakının Binə qəsəbəsində yerləşən "Ümid yeri" uşaq sığınacağına baş çəkiblər.

Görüşdə AGF-in əməkdaşları ilə birlikdə bədii gimnastika üzrə yığma komandanın üzvləri Zöhrə Ağamirova və Arzu Cəlilova da iştirak ediblər. Federasiyanın nümayəndələri uşaq sığınacağının balaca sakinlərinə xoş anlar yaşadıblar. Federasiya nümayəndələri və gimnastlar qarşıdan gələn Yeni il və Dünya Azərbaycanlılarının Həmrəylik Günü münasibətilə uşaqları təbrik edərək, onlara xoşbəxt həyat arzulayıblar.

Gimnastlarımız balacalara Yeni il hədiyyələri təqdim edib, onlarla xatirə şəkilləri çəkdiriblər.

Qeyd edək ki, bu aksiya bədii gimnastika nümayəndələrinin təşəbbüsü ilə artıq ənənəyə çevrilib.

Tədbir COVID-19 pandemiyası ilə əlaqədar karantin rejimi qaydaları nəzərə alınaraq həyata keçirilib.

# VI Uşaq Paralimpiya İdman Oyunlarına yekun vurulub

VI Uşaq Paralimpiya İdman Oyunları COVID-19 pandemiyası ilə bağlı yumşalmalar nəzərə alınaraq, bu il mərhələli şəkildə 5 idman növü üzrə keçirilib. Oyunlarda respublikanın müxtəlif regionlarından, eyni zamanda, Naxçıvan Muxtar Respublikasından olan paralimpiyaçı uşaqlar iştirak ediblər.



Cüdo, pauerliftinq, stolüstü tennis, taekvondo və üzgüçülük idman növləri üzrə müxtəlif kateqoriyalarda 100-dən artıq fiziki məhdudiyyətli uşağın iştirak etdiyi Oyunlarda 21 dəst medal sahibini tapıb.

Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində Uşaq Paralimpiya Komitəsi 2013-cü ildə "Azercell Telekom" MMC və UNICEF-in Azərbaycandakı nümayəndəliyinin dəstəyi ilə yaradılıb. 2015-ci ildən başlayaraq hər il ənənəvi olaraq Uşaq Paralimpiya İdman Oyunları keçirilir.

Qeyd edək ki, Milli Paralimpiya Komitəsinin üzgüçüləri Tokio-2020 Yay Paralimpiya Oyunlarının çempionu Vəli İsrafilov və iştirakçısı Dana Şandıbina Uşaq Paralimpiya Komitəsinin yetirmələridirlər.

# *Zəka sahibləri respublika birinciliyində mübarizə aparıblar*

Ümummilli lider Heydər Əliyevin anım gününə həsr olunmuş "Təhsil" Respublika İdman Mərkəzinin şahmat üzrə respublika birinciliyi başa çatıb. "Təhsil" Respublika İdman Mərkəzinin 3 nömrəli İxtisaslaşdırılmış Olimpiya Ehtiyatları Uşaq-Gənclər İdman-Şahmat Məktəbində təşkil olunan final yarışında altı yaş qrupu üzrə (6, 8, 10, 12, 14, 16 yaşadək) 140 şahmatçı mübarizə aparıb.

Yekun nəticələrə əsasən müxtəlif yaş qruplarında qızlar arasında Mehriban Əhmədli, Əsnad Baxşızadə, Səadət Bəşirli, Lalə Hüseynova, Nərmin Abdinova, Aytac Məmmədova birinci yeri tutublar. Oğlanlar arasında keçirilən yarışlarda isə Atilla Orman, Əkbər Mirzəyev, Xaqan Əhməd, Tunar Davudov, Şahin Vəliyev, Xəzər Babazadə qalib adını qazanıblar.

Final yarışlarında ilk üç yeri tutan şahmatçılar "Təhsil" Respublika İdman Mərkəzi tərəfindən diplom və medallarla təltif olunacaqlar.

Yarışın keçirilməsində məqsəd ulu öndər Heydər Əliyev irsinin şagirdlərə çatdırılması, istedadlı şahmatçıların üzə çıxarılması, onların mərkəzin yaş qrupları üzrə yığma komandalarına cəlb edilməsi və şahmatçılar arasında dostluq əlaqələrinin yaradılmasından ibarətdir.



# *Məktəblilər "Böyük Zəfər" adlı voleybol turnirində yarışıblar*

Xəzər Rayon Gənclər və İdman İdarəsi, Yeni Azərbaycan Partiyası (YAP) Xəzər Rayon Təşkilatı və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının birgə təşkilatçılığı ilə "Böyük Zəfər" adlı voleybol turniri keçirilib.

Şağan Olimpiya İdman Kompleksində keçirilən tədbirin açılış mərasimində əvvəlcə Azərbaycanın Dövlət Himni səsləndirilib, şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.



Tədbirdə Xəzər Rayon Gənclər və İdman İdarəsinin rəisi Vüqar Əliyev, Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının sədri Həzəlxan Əbilov, Şağan Olimpiya İdman Kompleksinin direktoru Atakişi Cahanov və idman ictimaiyyətinin digər nümayəndələri iştirak ediblər.

Turnirdə rayonun orta məktəb komandaları qalib adı uğrunda mübarizə aparıblar. Yekun nəticələrə görə, birinci yeri 149 nömrəli orta məktəbin komandası tutub. İkinci yerə 185, üçüncü yerə isə 26 nömrəli orta məktəblərin komandaları layiq görülüblər.

Sonda qaliblər Xəzər Rayon Gənclər və İdman İdarəsinin və Azərbaycan Təhsil İşçiləri Azad Həmkarlar İttifaqının rəhbərliyi tərəfindən diplom və medallarla təltif olunublar.

# Şahmatçımız FIDE Super Final yarışında birinci yeri tutdu

Azərbaycan şahmatçısı Gövhər Beydullayeva yeniyetmə şahmatçılar arasında rapid üzrə FIDE onlayn Superfinal yarışında uğurla çıxış edərək turnirin qalibi olub.



"Youth rapıd super final" adlanan turnirdə şahmatçımız 18 yaşadək qızlar arasında 10 turdan səkkiz xal toplayaraq birinci yeri tutub.

Bu yaş qrupunda daha bir şahmatçımız Mələk İsmayıl 5,5 xalla üçüncü pillədə qərarlaşıb.

Daha bir şahmatçımız Xəzər Babazadə (16 yaş oğlanlar) isə altı xalla üçüncü yerə sahib olub.

Qeyd edək ki, yarış 10, 12, 14, 16 və 18 yaş qrupunda dairəvi sistem üzrə keçirilib. Hər yaş qrupunda altı şahmatçı mübarizə aparıb. Belə ki, onlardan üçü dünya kubokundan, ikisi Qran-Pri seriyasından, biri isə FIDE klassik reytinqinə görə ən yaxşı oyunçu kimi iştirak edib.

Turnirin ümumi mükafat fondu otuz min avrodur.

# Voleybolçumuz yenidən İndoneziya klubunda çıxış edəcək

Azərbaycan millisinin voleybolçusu Odina Əliyevanın yeni klubu müəyyənləşib. 31 yaşlı hücumçu karyerasını yenidən İndoneziyada davam etdirəcək. O, "Cakarta Elektrik" klubu ilə müqavilə imzalayıb. Voleybolçu 2021/2022-ci il mövsümünün sonunadək bu klubda çıxış edəcək.

Voleybolçumuz karyerasında ikinci dəfə İndoneziyada oynayacaq. O, 2020-ci ili "Cakarta Pertamina Energi"də keçirib.

Qeyd edək ki, yayda Braziliyanın "Sesi" klubuna keçən O.Əliyeva mövsümün ilk yarısında Cənubi Amerika təmsilçisinə məxsus olub.



Futbolla bağlı düşüncələr



Mobil İSMAYILOV

*(əvvəli 41-ci sayımızda)*

# AZARKEŞİN QEYD DƏFTƏRİNDƏN...

## Məşhur futbolçuların uğursuz məşqçilik taleyi

Dərhal gözümüzün önünə dünya futbol tarixində silinməz iz qoyan əfsanəvi Maradona gəlir. Bu dahi futbolçunun bir-iki oyununa baxmaq kifayətdir ki, onun vəhşi(!) istedadının cazibəsinə düşəsən. Amma sonradan hamı başa düşdü ki, bu futbolçu məşqçilik üçün yaranmayıb. Onu sadəcə adına, şöhrətinə görə baş məşqçi qismində görmək istəyirdilər.

Danimarkalı Mixael Laudrup bir neçə klubda, o cümlədən iki ərəb klubunda çalışsa da, elə də uğur qazana bilmədi.

Dünya şöhrətli futbolçu, 5 dəfə dünya çempionatlarında iştirak etmiş Lottar Matteus Almaniyada istər klub səviyyəsində, istərsə də yığmada fantastik uğurlara imza atmışdır. Lakin futbolçu karyerasını bitirdikdən sonra məşqçilik fəaliyyətinə başlayan Matteusun heç bir uğurları olmadı.

"Karpat Maradonası" adlandırılan George Hacının oynadığı klublarda böyük uğurlara nail olması futbol həvəskarlarına bəllidir. Amma sonradan məşqçilik fəaliyyəti ona heç bir ad-san, şan-şöhrət gətirmədi.

Məşhur futbolçu kimi tarixə düşmüş Artur Zikonun da məşqçilik dövrü uğursuz alındı. Axırıncı iş yeri olan Qətərin "Əl Qaraf" klubunda o, cəmi 1 il qala bildi.

Alan Şirer, Klarens Zeedorf, Tyeri Anri, Frenk Lempard, Filippo İnzaqi kimi ulduz futbolçular əbədi futbol tarixinə düşsələr də, sonradan baş məşqçi qismində özlərini təsdiq edə bilmədilər. Onların da məşqçilik fəaliyyəti sadəcə alınmadı, vəssalam.

Yeri gəlmişkən, bizim İqor Ponomaryovu da uğursuz məşqçilər siyahısına daxil etmək olar. Həmyerlimiz harada işləyibsə, özünü doğrultmayıb və yaxşı nəticələr əldə edə bilməyib.

Beləliklə, "futbol magistiraturasını" əla bitirənlərdən "yaxşı müəllim" çıxmadığını qəbul etməliyik. Futbol olimpinin zirvəsini fəth edənlər nədənsə uğurlu məşqçilərə çevrilə bilmirlər. Yəqin ki, bu da bir tale işidir.

## Dünənki işinə görə təşəkkür edirik! Bəs, bu gün?!

Artıq müəyyən titullar qazanmış təcrübəli məşqçinin bir də görürsən yeni klubunda növbəti mövsümdə işi bəyənilmir. Həm keyfiyyət baxımından, həm də nəticə baxımından. Tezliklə belələrinin məşqçilik qabiliyyətinə dodaq büzən azarkeşlər çoxalmağa başlayır. Və yaxud bir mövsüm şöhrətin üst qatına yüksələn, böyük uğur qazanan məşqçi növbəti mövsüm gözlənilmədən çətinliklərlə üzləşir və futbol həvəskarlarını çaş-baş salır. Hətta belə demək mümkünsə, mövsümü hörmətindən, şöhrətindən xərcləyir. Nəticədə komandanın rəhbərliyində, mütəxəssislərdə, azarkeşlərdə ən azından belə fikirlər yaranmağa başlayır ki, baş məşqçi təsadüfdən parlamışdır, elə bir istedad sahibi də deyildir və ümidverici təsir bağışlamır. Və təbii ki, məşqçiyə qarşı iradlar, ittihamlar başlayır. Sanki belələrinə demək istəyirlər ki, keçmişini bilirik, əvvəlki titullar bəllidir, dünənki işinə görə sağ ol. Bəs, indi?!

Məşqçi anlamalıdır ki, azarkeşlərə yeni uğurlar təqdim etməlidir. Çünki insanlar artıq köhnəlmiş nailiyyətlər haqqında nə qədər danışacaqlar ki?... Məşqçi bilməlidir ki, əvvəlki titullara arxayın olmaqla məşqçilik vəzifəsini qoruyub saxlamaq indi mümkün deyildir. Əvvəlki şöhrətin üstünə yeni şöhrət gətirməlidir. Artıq yeni səs-küy yaratmalıdır.

Ən yüksək mərtəbədə olan baş məşqçilərin sonradan uğursuzluğa məruz qalmalarına dair bir neçə nümunə göstərmək istəyirəm.

2000-2001-ci il mövsümündə Klaus Topmüller Leverkuzenin "Bayer" komandasını Almaniya bundesliqasında ikinci yerə, eləcə də ÇL-nın finalına gətirib çıxardı. Əslində ölkə çempionluğunu "Bayer" son turda əldən vermişdi. Finalda alman komandası "Real"ın ulduzlardan ibarət klubuna uduzsa da, futbol həvəskarlarının, mütəxəssislərin diqqətini cəlb etdi. Lakin növbəti mövsüm bu komandadan əsər-əlamət qalmadı. Hətta klub bundesliqanı tərk etmək təhlükəsi ilə üzləşdi. Ona görə də Topmüller 2003-cü ildə istefaya göndərildi. Halbuki bu məşqçi bir il əvvəl Almaniyanın ən yaxşı məşqçisi seçilmişdi.



Con Benjamin Toşak Madrid "Real"ı ilə çempionluq yaşamışdı. Amma Lənkəranın "Xəzər" komandasında uğur qazanmadı və təbii ki, məşqçi kimi də qala bilmədi. Tanınmış məşqçi Mustafa Dənizlinin də Lənkəranda işi alınmadı və o da ümidləri doğrultmadı.

Mənim də kifayət qədər yaxşı mütəxəssis hesab etdiyim və rəğbət bəslədiyim Mirça Luçesku Türkiyə yığmasına baş məşqçi təyin olunanda nədənsə ehtimal etdim ki, onun millidə uğurlu fəaliyyəti baş tutmayacaq. Belə də oldu. Rumın məşqçi yığmada tab gətirmədi. 2017-ci ilin sentyabrında Türkiyənin öz meydanında gözlənilmədən 0:3 hesabı ilə məğlub olmasının günahı birbaşa Luçeskunun ayağına yazıldı. Belə ki, baş məşqçi heyəti formalaşdırarkən heç də birmənalı qarşılanmayan şəxsi münasibət amillərinə üstünlük vermişdi. Bundan başqa adlardan çəkinmə ehtimalı da istisna olunmurdu. Hər bir halda olduqca məsul oyunda Əmrə, Arda və həmin ərəfədə elə də yaxşı formada olmayan Burak Yılmaz start heyətində meydana çıxmalı deyildilər. Ümumiyyətlə, Luçesku sırf klub məşqçisidir. Və mən onu hər hansı bir yığmaya böyük uğur gətirən məşqçi hesab etmirəm. Mənə elə gəlir ki, o, özü də bunu bilir və həmişə milli yığmalarda işləməkdən imtina edir. Türkiyə yığmasının sükanı arxasına keçməyin də yanlış addım olduğunu zaman tezliklə göstərdi. Luçesku səhv addım atdığını özü də etiraf etdi və qardaş ölkənin yığmasından ayrıldı.



Arsen Vengerin möhtəşəm məşqçilik marafonu görün neçə illər davam etdi. Amma vaxtı gələndə, o da getməli oldu.

İtaliyalı mütəxəssis Klaudio Ranyeri heç kimin gözləmədiyi halda "Lester Siti"ni İngiltərə Premyer liqasında çempionluğa gətirib çıxardı. Lakin növbəti mövsüm nə Ranyeri özünə bənzəyirdi, nə də onun rəhbərlik etdiyi komanda. "Qara zolaq"dan çıxa bilməyən italiyalı məşqçi istefaya göndərildi. Onun İngiltərədəki sonrakı fəaliyyəti də uğursuz alındı və o, vətəninə döndü. 2018-2019 mövsümündə "Roma"nı çalışdıran Ranyeri özünü təsdiq edə bilməyərək, bu klubdan da ayrılmalı oldu. Hazırda o, yenidən İngiltərədədir və təhlükəli zonada olan "Uotford"un baş məşqçisidir.

"Tottenhem"in sabiq baş məşqçisi portuqaliyalı Nunu Eşpritu Santu 2021-ci ilin noyabrında komandadan ayrılarkən çox emosional bir müsahibə vermişdi: "Premyer liqada "Tottenhem" əla start götürdü və liderliyə yüksəldi. Və mən oktyabr ayının ən yaxşı məşqçisi seçildim. Noyabr ayında isə istefaya göndərildim. Bəli, indi futbol belə amansız olub. Ayın məşqçisi sonra da istefaya göndərilir".

Məşhur ispan mütəxəssisi, mənim də həmişə fəaliyyətinə xüsusi önəm verdiyim Rafael Benitesin də hazırda "Everton"da işləri yaxşı getmir. Artıq ona da vaxt verilib. İşləri qaydaya düşməsə, komandadan ayrılacağı ehtimal olunur.

Tədqimata ehtiyacı olmayan, peşəkar klub məşqçiləri Massimiliano Alleqri və Joze Mourinyodan da hazırda "Yuventus" və "Roma" azarkeşləri də narazılıqlarını gizlətmirlər.

Bu yaxınlarda adlı-sanlı hollandiyalı mütəxəssis 74 yaşlı Dik Advokat da 6 oyundan 4 xal toplamış İraq millisindən istefa verdi.

Lap elə bu günlərdə "Beşiktaş"la böyük uğurlar qazanmış Sergen Yalçın komandanı böhrandan çıxara bilmədiyinə görə istefaya göndərildi.

Bəzi məşqçilər xüsusi çəkiyə malik olsalar da və işlədiyi klublarda davamlı uğurlar qazanmalarına baxmayaraq, yeri gələndə,vaxtları çatanda, onlar da yola salınırlar.

Məsələn, belə məşqçilərdən olan Karlo Ançelotti heç bir problem yaşamadığı halda gözlənilmədən "Bavariya"dan getdi.

Göründüyü kimi, əgər yüksəliş dövrü, pik mərhələsi varsa, deməli, enmə də olacaq. Bu, qanunauyğunluqdur. Əslində, həyatımızın digər sahələrində də əksər hallarda belə proseslər baş verir. Ona görə də tanınmış futbol məşqçilərinin büdrəməsinə təbii baxmaq lazımdır.

## Dünəni və bu günü eyni olan-dəyişməyən Qurban Qurbanov

Dünya şöhrətli məşqçilərdən söz salmışıqsa, bizim Qurban Qurbanovu necə yaddan çıxara bilərik?! Hələ bir neçə il bundan qabaq işıq üzü görən "Qo-o-o-ol!" kitabımda qeyd etmişdim ki, yaxın gələcəkdə Qurban Qurbanov mütləq tanınmış məşqçilərin siyahısına düşəcək. İndi həmin dövr gəlib yetişib. "Qarabağ" futbol komandası bu gün bizim fəxarət qaynağımızdır. Baş məşqçi də komandamızın sükanı arxasında çox inamlı görünür. Bütün problemləri adlamağı bacaran Qurban Qurbanov səviyyəli mütəxəssisdir. Azarkeşlərin ona xüsusi rəğbəti var. Bu, açıq-aydın hiss olunur. O, rəhbərlik etdiyi komandanı dünən də, bu gün də bir ailə kimi formalaşdırmağa nail olub. Mətbuat konfranslarında bir qayda olaraq ehtiyatla danışır. Ehtiyatlı şərhi, davranışı ona əlavə hörmət gətirir. Mən tam haqlı olaraq düşünürəm ki, o, bu gün dünyanın aristokrat məşqçilərindən biridir.

Hər bir məşqçi Avropanın böyük klublarını xəyallarında dolaşdırır. Bəli, bu gün Qurban Qurbanov artıq məşhurlaşaraq Avropada tanınır.

## Yapışdırılan yarlıqlar

Futbolda da təbii ki, yapışdırılan yarlıqlar olur. Əslində, bu yarlıqları da, təhlilləri də, ehtimalları da azarkeşlər, mütəxəssislər, idman jurnalistləri düşünüb tapırlar. Elə yarlıqları da onlar yapışdırırlar. Nəzərə alsaq ki, futbol dünyasını işıqlandıran jurnalistlər heç də sadə kontingent deyildir. Ona görə də futbol aləmində şərh edilən məsələlər, problemlər, yanaşmalar nisbidir. Elə həyatda olduğu kimi...



Qoy şansınız üzünüzə gülsün!

Qoy bəxti olmayanlar incimәsin.

## Millimiz reytinqdə mövqeyini qorudu

FIFA futbol üzrə milli komandaların növbəti reytinq cədvəlini açıqlayıb. Ötən ay açıqlanmış reytinq cədvəli ilə müqayisədə Azərbaycan milli komandasının mövqeyində dəyişiklik olmayıb. Millimiz 1139 xalla 120-ci pillədə qərarlaşıb.

Reytinq cədvəlinə 1828 xalla Belçika millisi başçılıq edir. Braziliya yığması 1826 xalla ikinci, Fransa isə 1786 xalla üçüncüdür.

Qeyd edək ki, növbəti siyahı gələn il fevralın 10-da açıqlanacaq.



## *Bakı Olimpiya Stadionunda daun sindromlu uşaqlar üçün Yeni il şənliyi təşkil olunub*

AFFA-nın təşkilatçılığı və assosiasiyanın tərəfdaşları “PAŞA Sığorta”, “Marriott Hotel Boulevard”, “Aquavita”nın dəstəyi ilə Bakı Olimpiya Stadionunda (BOS) daun sindromlu uşaqlar üçün Yeni il şənliyi keçirilib.

Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzindən dəvət olunmuş uşaqları stadiona Azərbaycan milli komandasının avtobusu gətirib.

Onları BOS-da AFFA-nın icraçı vitse-prezidenti Elxan Məmmədov, veteran futbolçu Cavid Hüseynov, “Zirə” klubunun üzvü Ruslan Abışov, “Sumqayıt”ın qapıçısı Aydın Bayramov və qadınlardan ibarət Azərbaycan U-17 millisinin məşqçisi Kader Alimova qarşılayıb. Onlar uşaqlara qarşıdan gələn 31 dekabr - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibəti ilə təbriklərini çatdırıblar.

Daha sonra uşaqlar stadionun paltardəyişmə otağına dəvət olunub və məlumat verilib ki, milli komanda oyunlar zamanı məhz həmin otaqdan istifadə edir. Paltardəyişmə otağında uşaqlara Azərbaycan milli komandasının futbol köynəyi hədiyyə olunub. Futbol köynəkləri fərdi olaraq hazırlanıb və hər birinin üzərində geyimin təqdim olunduğu uşağın adı yazılıb.

Tədbirin sonunda uşaqlar yolkanın ətrafına dəvət olunub, burada təşkil olunmuş əyləncəli proqramda iştirak edib, onlara AFFA və tərəfdaşları tərəfindən hədiyyələr təqdim olunub.



## *Aykido döyüş növü üzrə respublika seminarı keçirilib*

Bu günlərdə “Judo Club 2012”də Azərbaycan Avrasiya Aykido və Budo Mərkəzinin prezidenti aykido döyüş növü üzrə 5-ci dan qara kəmər ustası Nazim Əliyevin rəhbərliyi və təşkilatçılığı ilə respublika seminarı keçirilib. Seminarın keçirilməsində əsas məqsəd aykido döyüş növünü ölkəmizdə populyarlaşdırmaq və əhalini bu idman növü ilə məşğul olmağa cəlb etməkdən ibarət olub.

Respublika seminarında Azərbaycan Avrasiya Aykido və Budo Mərkəzinin Bakı məktəblərinin - SABİS-İnternational, Əhmədli məktəbi, eləcə də Gəncə, Şəki Regional şöbələrinin, Oğuz filialının 70-ə yaxın idmançısı ilə yanaşı, Real Aykido Federasiyasının və Aykikay Mogenru İctimai Birliyinin idmançıları da yaxından iştirak ediblər.

Seminar zamanı Gəncə regional şöbəsinin rəhbəri, aykido döyüş növü üzrə 5-ci dan qara kəmər ustası Ramin Yusifov iştirakçılara tatamidə aykido fəndləri göstərməklə praktiki məşqlər keçib.

**İncəsənət və idman**

# Şahmat üzrə beynəlxalq dərəcəli hakim və peşəkar rəssam

***İncəsənət insan hisslərini təsvir edən vasitədir. Burada insanın göstərdiyi yüksək bacarıq və məharət nəzərdə tutulur. İncəsənət insanın ideallarını birləşdirən ümdə dəyərdir.***

***İncəsənətin ayrılmaz hissəsi olan rəssamlıq sənətində real aləmin təsviri, rəngi, məkan, əşyaların maddi forması, işıq və hava mühiti və s. kimi obyektiv surətdə mövcud olan əlamətlər canlandırılır.***



Rəssamlığı seçən insanlar isə adətən özləri də qəribə xarakterli olurlar. Rənglər kimi onların da təbiəti müxtəlif çalarlıdır. Bu insanlar zəngin daxili aləmə, həssas qəlbə malik olurlar. Hər dəfə rənglərin çoxçalarlı dünyasına səyahət edəndə orada özlərini tapır, hisslərinə, duyğularına hakim kəsilən rənglərdən möcüzələr yaradırlar. Bu, sadəcə, ilahi bir vergidir. Elə Bəxtiyar Rüstəmov da təbiətən rəssam kimi doğulub. Yaşadığı aləmin gözəlliyini, xalqın qüdrətli sənətkarlarının portretlərini rənglərin dili ilə canlandırmaq onun sənət dünyasında özünəməxsus yer tutur.

Əməkdar müəllim, Əməkdar bədən tərbiyəsi və idman xadimi, şahmat üzrə beynəlxalq dərəcəli hakim, riyaziyyat üzrə elmlər doktoru, professor, peşəkar rəssam Bəxtiyar Rüstəmovun adı Azərbaycan idman tarixinə qızıl hərflərlə yazılıb. Azərbaycan peşəkar rəssamlıq sənətində özünəməxsus yeri olan B.Rüstəmov 1960-cı il yanvarın 9-da Azərbaycan Respublikasının Ağdam rayonunun Gülablı kəndində anadan olub. 1982-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini, 2004-cü ildə isə Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasını fərqlənmə diplomu ilə bitirib.



1982-ci ildə Azərbaycan Dövlət Universitetinin fizika fakültəsini bitirərək təyinatla Azərbaycan Milli Elmlər Akademiyasının Bioloji Tədqiqatlar Elmi Mərkəzində baş laborant, sonralar isə Təbii Ehtiyatların Kosmik Tədqiqatları İnstitutunda mühəndis işləyib. 1987-ci ildən “Ehtiyyat Əmək Qüvvələri” Könüllü İdman Cəmiyyətində şahmat üzrə baş məşqçi vəzifəsində çalışıb. 1983-1985-ci illərdə Azərbaycan Pedaqoji Xarici Dillər İnstitutunun nəzdində iki illik ingilis dili şöbəsini əla qiymətlərlə bitirib. 1986-1996-cı illərdə “Baku” qəzetində şahmat güşəsinin redaktoru, 1987-ci ildən Azərbaycan Televiziyasında “Şahmat məşqçilərinin televiziya məktəbi” verilişində, sonralar isə “Şahmat klubu” verilişində aparıcı olub. 1987-ci ildən ADBTİA-nın “Tətbiqi idman növləri” kafedrasında çalışır. 1994-cü ildən akademiyanın Elmi Şurasının katibi və 1997-ci ildən Olimpiya Akademiyasının elmi katibidir. 2012-2016-cı illərdə Azərbaycanda ilk dəfə olaraq yaradılmış “Şahmatın nəzəriyyəsi və metodikası” kafedrasının müdiri vəzifəsində işləyib. Hazırda ADBTİA-nın Elmi Şurasının katibidir.

Bəxtiyar Rüstəmov uşaq yaşlarından şahmatla məşğul olmağa başlayıb. 1982-ci ildə şahmat məsələlərinin əyani həlli üzrə Azərbaycan çempionu, 1985, 1987, 1991-ci illərdə şahmat məsələlərinin tərtibi üzrə Azərbaycan çempionu, şahmat üzrə keçmiş SSRİ çempionatının yarımfinal yarışlarının iştirakçısı olub. 1993-cü ildə Azərbaycan Respublikasının idman ustası, 1997-ci ildə isə şahmat üzrə beynəlxalq dərəcəli hakim adına layiq görülüb.

O, 1992-2004-cü illərdə Azərbaycan Şahmat Federasiyasının Baş katibi olub. Şahmat məsələlərinin tərtibi üzrə də uğurlar qazanıb. Onun bəstələdiyi şahmat məsələləri dünyanın bir çox şahmat jurnalında, o cümlədən Almaniya, Şotlandiya, Çexiya, Rusiya, Belarus və s. dövlətlərdə nəşr edilib. Bütün bunlarla yanaşı, o, məşqçilik fəaliyyəti ilə də məşğul olub. Azərbaycan şahmatçılarının müvəffəqiyyətində onun da əməyi var. Onun yetirmələrindən P.İsmayılova və M.Şükürova beynəlxalq usta adını qazanıb. P.İsmayılova həmçinin 10 yaşınadək qızlar arasında dünya çempionu olub. Bəxtiyar Rüstəmovun yetirmələrindən S.Davidov, T.Fərzəliyev Avropa və dünya birinciliklərinin iştirakçısı, bir sıra beynəlxalq şahmat turnirlərinin qalib və mükafatçısı olub. O, 7 idman ustası hazırlayıb. Bütün bunlara görə 2003-cü ildə o, Azərbaycan Respublikasının Əməkdar məşqçisi adına layiq görülüb. 2005-ci ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən ona “Tətbiqi İdman növləri” kafedrası üzrə dosent elmi adı verilib. 2007-ci ildə Bakı Dövlət Universitetinin Tətbiqi riyaziyyat fakültəsində “Yanan bərk yanacaqda əmələ gəlmiş çatların artmasının riyazi modelləşdirilməsi” mövzusunda dissertasiya müdafiə edərək, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru elmi dərəcəsi alıb.

Bəxtiyar Rüstəmova 2010-cu ildə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Azərbaycan Respublikasının Əməkdar müəllimi fəxri adı verilib. 2013-cü ildə AMEA-nın Riyaziyyat və mexanika İnstitutunda “Yanan deformasiya olunan bərk cismin dağılması” mövzusunda doktorluq dissertasiyası müdafiə edərək riyaziyyat üzrə elmlər doktoru alimlik dərəcəsini alıb. 2014-cü ildə Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyası tərəfindən ona “Şahmatın nəzəriyyəsi və metodikası” kafedrası üzrə professor elmi adı verilib. 2017-ci ildə bədən tərbiyəsi və idmanın inkişafındakı yüksək xidmətlərinə görə MDB ölkələri Parlamentlərarası döş nişanı ilə mükafatlandırılıb.

B.Rüstəmov 11 fevral 2021-ci il tarixində ADBTİA-nın 90 illiyi münasibətilə Azərbaycanda bədən tərbiyəsi və idman sahəsində kadr hazırlığındakı xidmətlərinə görə Prezident İlham Əliyevin Sərəncamı ilə “Əməkdar Bədən Tərbiyəsi və İdman Xadimi” adına layiq görülüb. O, 100 əyani elmi, elmi-metodiki əsərin, o cümlədən 7 dərslik, 2 dərs vəsaiti, 1 metodiki vəsait, 9 tədris proqramın müəllifidir.

Təsviri sənət tarixinin bir-birindən maraqlı səhifələrində bu sahədə yaradıcılıqla məşğul olanların rənglərə bir-birindən fərqli münasibətlərinə şahidlik etmək mümkündür. Belə imzalar dünya rəssamlığında olduğu kimi, milli bədii məkanımızda da kifayət qədərdir. Elə bu səbəbdən də təsviri sənətimizin rəngkarlıq məkanı duyulası dərəcədə cəlbedici və duyğulandırıcı görünməkdədir. Çoxları rənglərə münasibətini lokal şəkildə, açıq-aydın biçimdə sərgiləyir, bəziləri isə ürəyinin duyğularını rənglərin alt qatında hifz olunmuş bir görkəmdə ifadə edir. Belə əsərlərin çox vaxt zahiri görkəmi “aldadıcı” olur, lap aysberq kimi. Elə bu gün əsərləri barəsində söz açmaq istədiyimiz Bəxtiyar Rüstəmov belə yaradıcı insanlardandır.

Bu il dekabrın 18-də şahmat üzrə beynəlxalq dərəcəli hakim Bəxtiyar Rüstəmovun “Art-Debüt” adlı fərdi sərgisinin açılışı olub. B. Rüstəmovun ilk fərdi sərgisində 11 yağlı boya, 12 qrafika, 9 kağız üzərində akril ilə işləmə və 2 ağacoyma işi təqdim olunub. Müxtəlif mövzuların vəhdətini təşkil edən sərgidə Bəxtiyar Rüstəmov yüksək peşəkarlıq və titizliklə ərsəyə gətirdiyi əsərlərində insanları düşündürməyi bacarıb.

Uşaq yaşlarından yaradıcılıqla məşğul olan müəllif əsərlərini dünyada tüğyan edən koronavirus pandemiyası zamanı ölkəmizdə tətbiq olunan sərt karantin rejimi zamanı ərsəyə gətirib. Bəxtiyar Rüstəmov bunu fürsət bilərək daxilində cəmlənmiş düşüncə və fikirlərini kətan üzərinə böyük həssaslıqla köçürüb. Gözəllik duyğusu, işıqlı rənglərin çoxluğu, həyatsevərlik və xeyirxahlıq kimi mövzuların yer aldığı sənət əsərlərində vətənpərvərlik mövzusu da xüsusi çəkiyə malikdir. Janr müxtəlifliyi və işlənmə texnikası baxımından maraq doğuran əsərlər onun zəngin dünyagörüşünün və gərgin əməyinin bəhrəsidir. Bəxtiyar Rüstəmov insanların obrazını qeyri-adi formada çəkən peşəkar rəssamdır. Fırça ustasının obrazlara, palitranın orjinallığına və müxtəlif janrların yaradıcı sintezinə özünəməxsus yanaşması var.

Sərginin keçirilməsində məqsəd təbiətin qorunması, vətənə məhəbbət hissinin aşılanması, milli adət-ənənələrin təbliği, estetik və bədii zövqün formalaşması, yaradıcılığın, obrazlı düşüncənin inkişaf etdirilməsindən ibarətdir.

Peşəkar rəssam Bəxtiyar Rüstəmovun əsərlərində əks olunan vətənpərvərlik ideyası bugünkü və gələcək nəsillərin yolunda bir örnəkdir. Bu münasibətlə onu təbrik edir, uğurlarının davamlı olmasını arzulayırıq

***Dilqəm Quliyev,***
***“İdmançı” qəzetinin baş redaktoru***

# Dünya idmanı



## Maks Ferstappen ilin idmançısı seçildi

Niderlandda ilin ən yaxşı idmançısı müəyyənləşib. Bu ada Formula 1 üzrə dünya çempionu olan “Red Bull” komandasının pilotu Maks Ferstappen layiq görülüb. 24 yaşlı sürücü səsvermədə velosiped idmanı üzrə ikiqat Olimpiya çempionu Harri Lavreysen və Tokio-2020 Yay Olimpiya Oyunlarının BMX üzrə qalibi Nik Kimmannı üstələyib.

Qeyd edək ki, Maks Ferstappen karyerasında ilk dəfə dünya çempionu olub.



## *MMA döyüşçüsü oteldə dava saldı*



ABŞ-dan olan keçmiş MMA döyüşçüsü Çeyl Sonnen Las-Veqasda müvəqqəti qaldığı oteldə dava salıb. İlkin məlumatlara görə, 44 yaşlı sabiq MMA döyüşçüsü beş nəfərlə əlbəyaxa davaya çıxıb. Hadisə yerinə əvvəl otelin mühafizəçiləri daha sonra isə hüquq-mühafizə orqanlarının əməkdaşları gəlib.

Bir neçə saatını polis bölməsində keçirən Çeyl Sonnen cərimə edilərək, azadlığa buraxılıb.

Qeyd edək ki, peşəkar döyüşçü karyerasını 2019-cu ildə bitirən keçmiş döyüşçü ABŞ-da yayımlanan ESPN idman televiziya kanalında aparıcı və ekspert kimi çalışır.

## “Sambaçı” xəstəxanadan evə buraxıldı



Əfsanəvi braziliyalı futbolçu Pele xəstəxanadan evə buraxılıb. 81 yaşlı sabiq hücumçu müalicəsini evində davam etdirəcək. Onun vəziyyətinin stabil olduğu bildirilib.

Qeyd edək ki, Pele daha əvvəl avqustun 30-da xəstəxanaya yerləşdirilib. Keçmiş forvard sentyabrın 6-da yoğun bağırsağındakı şişlə əlaqədar əməliyyat edilib. O, sentyabrın 14-də xəstəxananın intensiv terapiya şöbəsindən palataya köçürülüb. Futbol kralı sonuncu dəfə dekabrın 8-də San-Pauludakı özəl klinikalardan birinə çatdırılıb.

## *Məhkəmə məşhur futbolçunu cərimələdi*

Los-Anceles məhkəməsi İngiltərənin “Liverpul” klubunun keçmiş futbolçusu Daniel Starrici 30 min ABŞ dolları ödəməyə məcbur edib. 32 yaşlı hücumçu həmin məbləği itini tapan şəxsə verməli olub. İt 2019-cu ildə Starricin evindən oğurlanıb. Təcrübəli forvard sosial şəbəkədə izləyiciləri ilə əlaqə saxlayıb və ev heyvanını ona verəcək şəxsə 30 min dollar ödəyəcəyini bildirib.

İti Los-Ancelesdə Foster Vaşinqton adlı musiqiçi tapıb, futbolçu isə ona pul mükafatı verməkdən imtina edib. F. Vaşinqton bundan sonra ingiltərəli oyunçunu məhkəməyə verib.

Qeyd edək ki, Daniel Starric oktyabrdan Avstraliyanın “Pert Qlori” klubunda çıxış edir.

## “Milan” məşqlərini onlayn qaydada keçəcək



İtaliyanın “Milan” komandası koronavirus səbəbindən məşqlərini onlayn qaydada keçəcək. Bu barədə “rossonyerlər”in baş məşqçisi Stefano Pioli açıqlamasında bildirib. O, futbolçuların “Zoom” onlayn platformasında məşqlərə qatılacaqlarını və dekabrın 30-da yenidən bir araya gələcəklərini söyləyib. Qeyd edək ki, İtaliyanın bir neçə klubunda koronavirus kütləvi yoluxma qeydə alınıb. “Milan” A Seriyasındakı növbəti matçını yanvarın 6-da “Roma”ya qarşı keçirməlidir.


**olimpnews.az - sizin saytınız**




Azərbaycan Milli Olimpiya Komitəsinin vitse-prezidenti Çingiz Hüseynzadə və MOK-un kollektivi Xəzər İsayevə, anası

**İzafət xanımın**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər. Allah rəhmət eləsin!

Respublika Yüksək İdman Ustalığı Məktəbinin kollektivi Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayevə, anası

**İzafət xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin kollektivi, DGKİSM-in baş direktoru Xəzər İsayevə, anası

**İzafət xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!

“Olimpiya dünyası” qəzetinin kollektivi Dövlət Gömrük Komitəsi İdman Sağlamlıq Mərkəzinin baş direktoru Xəzər İsayevə, anası

**İzafət xanımın**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir. Allah rəhmət eləsin!


Olimpiya dünyası

Baş redaktor: M.Q.Fərzəliyev

Qəzet Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Hüquqi Şəxslərin Dövlət Qeydiyyatı üzrə Bakı Bölgə Şöbəsində qeydiyyatdan keçib. Qeydiyyat N R-168
AZƏRBAYCAN BEYNƏLXALQ BANKI
VÖEN 9900001881
H/H AZ79IBAZ38090019449333849204
M/H AZ03NABZ01350100000000002944
KOD 805722
VÖEN 1500306421

Təqdim olunmuş materiallar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər. Redaksiya reklam materiallarının məzmununa görə məsuliyyət daşımır.

Qiyməti 40 qəpikdir. Qəzet “Olimpiya dünyası”nın kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində (Şərifzadə küçəsi, 3. tel: 447-75-05(04)) çərşənbə axşamı 4100 nüsxə ilə çap edilir.



E-mail: olimpiya_dunyasi@mail.ru
Ünvan: Bakı şəhəri, 2-ci sülh döngəsi, 2a.
Tel.: 564-90-49; 564-74-19



DİQQƏT!
Qəzetimizin materiallarından istifadə edərkən “Olimpiya dünyası”na istinad etmək zəruridir.